# İpək yolu ölkələri arasında ticarətə yardım və onun asanlaşdırılması üzrə gömrük idarələrinin roluna dair 6-cı beynəlxalq Forum











Noyabrın 14-də Qəbələ şəhərində İpək Yolu Ölkələri arasında "Ticarətə yardım və onun asanlaşdırılması üzrə gömrük idarələrinin rolu" mövzusunda 6-cı Beynəlxalq Forum öz işinə başlamışdır.

Forumda 11 ölkə— Azərbaycan, Türkiyə, Bolqarıstan, Çin, Gürcüstan, İtaliya, Qazaxıstan, Qırğızıstan, Moldova, Serbiya və Özbəkistan, həmçinin 5 beynəlxalq təşkilat—Asiya İnkişaf Bankı, Ümumdünya Gömrük Təşkilatı, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsi də daxil olmaqla, 33 nümayəndə qatılmışdır.

Noyabrın 14-də forum iştirakçıları öncə Aərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Qəbələ Şəhərinin mərkəzi parkında ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə əklil qoymuşlar.

Forumun açılış mərasimi "Qafqaz Resort" oteldə olmuşdur.

Mərasimdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general leytenantı Aydın Əliyev, Türkiyə Respublikasının ticarət və gömrük naziri Hayati Yazıcı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Baş katibinin müavini Qismət Gözəlov və TRASECA katibliyi nümayəndəsi iştirak edirlər.

Beynəlxalq Forumu giriş sözü ilə Aydın Əliyev açmış və iştirakçıları salamlamışdır. Sonra Türkiyə Respublikasının ticarət və Gömrük Naziri Hayati Yazıcı və başqaları çıxış edərək, Forumun İpək Yolu Ölkələri arasında xüsusi rolundan və əhəmiyyətindən danışmışlar.

İki gün davam edəcək Forumda İpək Yolu təşəbbüsü çərçivəsində gömrük-sərhəd keçid prosedurlarının sadələşdirilməsi, İpək Yolu Ölkələrində tranzit sistemləri, gömrük-biznes əməkaşlığına dair təcrübə mübadiləsi və ÜGT-nin Çərçivə Standartları (İnteqrəedilmiş Sərhəd İdarəçiliyi) bölmələri üzrə—"Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin (TRASEKA) imkanları və perspektivləri", "Karvansara" layihəsi, "Ümumi Tranzit", "İƏT ölkələrində nəqliyyat dəhlizi", "MARİƏ inteqrəedilmiş ticarətin sadələşdirilməsi", "Əlaqələndirilmiş Sərhəd İdarəçiliyi", "Gömrük İslahatları: reallıqlar və perspektivlər" və s. mövzuda məruzələr dinləniləcək.

Forumun sonunda Qəbələ Bəyannaməsi qəbul ediləcəkdir.

**DGK Mətbuat Xidməti.**
**Fotolar S. Umuyevindir.**

# Vatikanlı qonaqlar Qəbələdə

Vatikanın mədəniyyət üzrə Pontifik Şurasının Prezidenti, kardinal Canfranko Ravazinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına səfəri çərçivəsində tanışlıq məqsədilə Qəbələ rayonuna gəlmişdir. Qonaqları Qəbələ Beynəlxalq Hava Limanında rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılamışdır.

Rayon icra hakimiyyətinin başçı Canfranko Ravaziniyə Qəbələ şəhərinin tarixi, rayonda sosial-iqtisadi inkişaf proqramları çərçivəsində həyata keçirilən müxtəlif layihələr və bütün sahələrdə nəzərə çarpan uğurlar haqqında ətraflı məlumat vermişdir. Sonra nümayəndə heyəti Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinə gəlmişdir. Muzeylə tanışlıq zamanı qonaqlara məlumat verilmişdir ki, 1980-ci ildən fəaliyyət göstərən muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixi əks olunur. Burada 12 mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə edilir.



Sonda Canfranko Ravazi muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır. Nümayəndə heyəti rayonun sənaye müəssisələrindən olan "Beltmann" piano fabrikində, Qəbələ konserv zavodunda istehsal prosesini də yaxından izləmişlər.

Rayonla tanışlıq zamanı qeyd olunmuşdur ki, burada yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm obyektləri Qəbələnin iqtisadi inkişaf dinamikasının artmasında müstəsna rol oynayır.

Vatikanın mədəniyyət üzrə nümayəndə heyəti azsaylı xalqlardan olan udilərin yaşadığı Nic qəsəbəsindəki yenidən bərpa olunmuş qədim "Cotari" Alban kilsəsinə də baş çəkmişdir. Həmçinin qonaqlar qəsəbədə yaşayan azsaylı xalqların yaşayış tərzi, kilsənin tarixi, hazırkı fəaliyyəti ilə yaxından tanış olmuş, kənd ictimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət etmişlər. Rayondan xoş təəssüratla ayrılan Canfranko Ravazi Qəbələ rayonunun qədim tarixi, unikal təbii-iqlim şəraiti olan gözəl bir məkan olduğunu bildirmişdir.

Qonağa rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən xatirə hədiyyəsi təqdim olunmuşdur.

**Zahir KƏRİMOV,**
**rayon icra hakimiyyətinin aparıcı məsləhətçisi.**
**Foto S. Umuyevindir.**